**Doktor Ziya Sədrüləşrafi haqqında**

Bu gün bu kürsüdə mənə verilən fürsəti yazıçı ulmağın nə demək ulduğu uzərində cəmələmək istərdim.

Mölf nədir və ya kimdir?

Dərhal deyim: yazıçı oxuyan adamdır. Bəs oxumaq nədir?

Oxumaq, insanlara və əşyalara xas olan mə`nanı açmaqdır. İnsan nədir sualına cavab axtarışıdır.Varlıq nədir, hardan gəlmişik, sualına cavab axtarmaqdır.

Bu cavab insanların və əşyaların mə`nasında var və orda qalır. Ama kimsə unu bizim üçün çıxarıb ortaya qoymasa, bu mə`na orada qalacaq. Ona görə də biri unu bizim üçün oxumalıdır.

Ancaq hərkəs öz oxumasının nəticəsini qarşımıza çıxarır. Una görə də hər kəs u mənanı özünə məxəsüs şəkildə oxuyur. Beləliklə, deməli, oxumağın bəzi formaları var.

Əlbətə alımın oxu teknikası ilə şairin oxu teknikası, şairin oxu teknikası  ilə hekayəçi, romançı, dəramaturqun oxu tərzi eyni deyil. Rəssamın oxuma tərzi ilə musiqiçinin oxuma tərzi bir-birindən tamam fərqlidir. Birıncisi oxuduqlarını rənglərlə, xətlərlə əks etədirməyə çalışsa da, ikincinin materyali səsdir. Musiqiçilər dünyanı öz melodiyaları ilə oxuyurlar.

Söhbət yazıçıdan gedirsə, dünyanı sözü ilə oxuyan, oxuduqlarını da sözü ilə bizə əks etdirən insandan gedir.

Deməli,yazıçının oxuduqlarının məzmunu, başqa sözlə desək, oxuduqlarını sözləri ilə əks etdirməsi şəxsi təcrübəsinin məhəsulu kimi əks olunur.

Bəs əks  olunan şey əks  olunduğu kimi orada qalırmı? Təbii ki,yox! Çünkü  onun bizə bəxş etdiyi bu mə`nanı hər bir fərdi oxucu olaraq özümüzə uyğun oxuyuruq və beləliklə də həmin mətni çuxaldırıq.

Burada sübyekt kimi baxdığımız məfhumu oxumağı bacarsaq, onun mə`nasını, özündə gizəltdiyi mə`nasını başqalarına da əks  etdirəbilərik.

Bəs bu işi bizim üçün kim öhdəsinə götürəcək? Oxumağa qabiliyəti – istiqamti – olan adam… o adam kim olduğunu bilir. Burada bugün 77.ci doğum gününü qeyd etdiğimiz doktor Ziya bəy, bizim üçün, biz oxucular üçün bu işi öhdəsinə alan şəxslərdəndir.

Bu iş yalnız istək həvəsi ilə olmaz. Bu iş əsl istedad tələb edir.

Geçən 100-150 il içərisndə, bizim Güney Azrbaycan xalqı olaraq, belə müdrik insanlarımız az olmayıbdır.

Ancaq çoxu ya başqa xalqlara xidmət ediblər və hətta Aytmatovun dediği kimi manqurt olublar, ya da çeşidli ideyoloqiyaların xidəmətində, xalqımıza düşmənlərdən də çox zərər veriblər. Belə ki indi də bir Türk olaraq onların yazdıqları, şüvinistlər tərəfindən kimlik harayımıza qarşı bir qaxınc kimi işlədılır.

Kimliklərini unutmayan və kımlik davamıza güc qatıb, qulluğ edən az sayıda olan mətəfəkkerlərimizdən bir böyügümüz Dokotr Ziya bəydir ki, hər zaman, hər yerdə v ihər dilinən, xalqımızın tarixi, ədbiyatı və varlığı uğrında böyük əmək sahibidir. Neçə dil bildiği üçün, tariximizi çeşidli qaynaqlardan oxuyaraq, farsca qaynaqlarda olan dar çərçivəli baxışların üstünə geçərək, tariximizdəki gizli mə`naları anlayıb,

başqalarına əks  etədirən, dərdimizi anladan və gənclərə yol göstərən, Ziya bəy kimi mütəfəkkerlərimizə sayqımız sonsuzdur və adları tarıxımızdə parlayacaqdır. Mənim burada böyügümüz olan, cənab Doktor Sədərə uzun ömür və can sağlığı diləyindən başqa söz deməyə gücüm çatmaz.

Doğum gününüz uğurlu olsun ustad.